# Qələbələrimizi təmin edən birliyimiz

**Tarix dəfələrlə sübut edib ki, bütün müharibə və mübarizələrdə həmişə güclülər qalib gəlir. Gücsüzlər isə yalnız məğlubiyyət acısını yaşamağa məcbur və məhkum olunurlar. Yüz illər, min illər keçsə də, baxıb görürsən ki, bu belədir. İllərdən, əsrlərdən bəridir ki, tarix bu məntiqini olduğu kimi qoruyub saxlayır.**



O xalq həmişə qalib gəlir ki, çətin günlərdə də, xoş günlərdə də bir yerdə olur, bütöv olur, yumruq kimi birləşir. Düşmən də bu birlikdən, bu gücdən qorxub geri çəkilir.

Birlik olmayan yerdə qalibiyyət də yoxdur. Xalqımız Vətən müharibəsi gedən günlərdə yumruğunu eyni nöqtəyə vurdu. Məğlubedilməz bir qüvvəyə çevrildi, qalib gəldi. Xalq yumruq kimi Müzəffər Ali Baş Komandanın ətrafında birləşdiyindən düşmən üzərində zəfər çaldı.

İnamla deyə bilərik ki, bu gün də birik, sabah da bir olacağıq. Ona görə ki, gücümüz tükənməsin, qüvvəmiz azalmasın!

## İgidliyinə əhsən, Azərbaycan əsgəri!

Müharibə başlayar-başlamaz həm narahatlıq, həm də sevinc dolu günlər yaşadıq. Qarabağda gedən döyüşlər barədə məlumat almaq üçün mətbuatı izləyir, saytlara göz qoyur, televizorun ekranı qarşısında oturub həyəcanla xəbərlər gözləyirdik. İzləyirdik ki, Silahlı Qüvvələrimizin cəbhədəki irəliləyişlərindən xəbər tutaq, hərbçilərimizin uğurlarını eşidək. İşğaldan azad edilmiş kəndlərimizi görək, döyüşlər zamanı düşmənin vurulub yandırılmış, ələ keçirilmiş zirehli texnikalarına baxaq. Sevinə-sevinə, fərəh hissi ilə Azərbaycan Ordusunun döyüş məharətini, uğurlarını seyr edək.

İşğalçıların döyüş texnikalarının və canlı qüvvələrinin hərbçilərimiz tərəfindən dəqiq zərbələrlə vurulduğunu gördükcə ürəkdən hayqırıb onlara "İgidliyinə əhsən, Azərbaycan əsgəri" - deyirdik. Döyüşlərin uğurlu gedişindən hiss olunurdu ki, zabit və əsgərlərimizin gülləleri, mərmiləri zərrə qədər də olsun hədəfdən yayınmır. İşğalçıların zirehli texnikalarının, silah-sursat dolu maşınlarının külü bircə anda göyə sovrulurdu, canlı qüvvəsi dəstə-dəstə məhv edilirdi. Mövqelərində duruş gətirə bilməyən düşmənin geri çəkilməkdən, illərdən bəri əllərində saxladıqları torpaqlarımızı tərk etməkdən başqa yolu qalmırdı.

Televiziya ekranlarından döyüş meydanından qaçan düşmən əsgərlərini görürdük. Bir anlıq gözlərimiz önünə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə meşələrdə, dağlarda ermənilər tərəfindən soyqırıma məruz qalmış Xocalı sakinləri gəlirdi. Ermənilər silahsız, günahsız soydaşlarımızı doğma ocaqlarından qaçarkən müxtəlif yerlərdə pusquya salıb güllələmişdilər, onlara dəhşətli işgəncələr vermişdilər.

Amma bu gün əsgərlərimiz tərəfindən Qarabağ torpaqlarında dəqiq atəş zərbəsi ilə qaçan, məhv edilən ermənilər silahsız deyildilər. Onlar neçə illərdən bəri silahlanıb havadarlarına arxalanaraq torpaqlarımızı işğalda saxlamışdılar. Hələ bu azmış kimi, tez-tez atəşkəs rejimini pozub səngərlərimizə güllə və mərmilər yağdırmışdılar. Ona görə yağıların aqibəti elə bu cür də olmalıydı. Azərbaycan Ordusu tərəfindən acı məğlubiyyətə düçar edilmiş qəsbkarlar, əgər gələcəkdə yenə də revanşa getsələr, onlar bundan da pis vəziyyətə düşəcəklər.

## Döyüşdə zəfər

Zabit və əsgərlərimizin yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdə göstərdikləri igidlik və qəhrəmanlıqlardan hamımız qürur duyduq. Bu yenilməz qürur, məğlubedilməz döyüş ruhu ürəyimizi sevinclə doldurdu, bizə iftixar dolu günlər və anlar yaşatdı. Azərbaycan Ordusunun bu uğuru, bu zəfəri gözlənilən idi. Çünki uzun illərdən bəri idi ki, ordumuzun zabit və əsgərləri yorulmaq bilmədən genişmiqyaslı təlim-məşqlərdə fəal iştirak edir, daim döyüş hazırlıqlarını artırırdılar. Erməni qəsbkarları üzərində qələbə qazanmağa, düşməni məhv etməyə, yurdumuzdan qovmağa hazırlaşırdılar.

Hərbçilərimiz təkcə ölkə daxilində deyil, beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində də xarici ölkələrdə keçirilən təlimlərdə iştirak edir, döyüş təcrübələrini daha da artırırdılar. Yenidən yeni olan ən müasir hərbi bilik və vərdişləri mənimsəyirdilər. Sistemli olaraq keçirilən təlim-məşqlərdə fəal iştirak edən hərbçilərimiz yüksək hazırlığın, peşəkarlığın qarşıdakı döyüşlərdə onlara böyük uğurlar, zəfərlər qazandıracağını çox yaxşı bilirdilər. Buna görə də təlimlərdə döyüş vərdişlərini təkmilləşdirir, silahların və hərbi texnikanın sirlərinə dərindən yiyələnirdilər. Təcrübəli və peşəkar olduqlarına görə də Vətən müharibəsində çətinlik çəkmədən düşmənlərin mövqelərini dəqiq atəş zərbələri ilə darmadağın etdilər. İnamla demək olar ki, İkinci Qarabağ müharibəsində qazanılan uğurlar yüksək döyüş hazırlığının nəticəsi idi. Deməli, gərgin keçən təlimlərdə tökülən tər hədər getmədi. Bu, döyüşlərdə hərbçilərimizə zəfərlər qazandırdı. İnanırıq ki, bu uğurlar davamlı olacaq, onun ardı heç vaxt kəsilməyəcək. Azərbaycan əsgərinin zəfərlərinin, uğurlarının səsi-sorağı dünyanın hər yerinə yayılacaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

Azərbaycan. - 2024.- 9 aprel, № 73.- S.8.